

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 4 (21.156)

*8 yanvar 2015-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik




## Heydər Əliyev Muzeyinin 19 min nəfər ziyarətçisi olub

Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyini 2014-cü ildə 19 min insan ziyarət edib. Bunun 902 nəfəri 27 xarici ölkədən gələn qonaqlar olub. Yerli ziyarətçilərin sayı isə 18 mini ötüb.

Ötən il ərzində muzeydə müxtəlif mövzularda 144 açıq dərs keçilib. Dərslərdə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali və orta ixtisas məktəblərinin tələbələri, orta məktəb şagirdləri iştirak ediblər.

Açıq dərslərdə ümummilli lider Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılması, gələcək inkişafının təmin olunması, ölkəmizin dünyada tanıdılması istiqamətində gördüyü mühüm işlər barədə dinləyicilərə geniş məlumatlar verilib.

Həmçinin ötən dövr ərzində Naxçıvan şəhərində fəaliyyət göstərən nazirliklərin, idarə və təşkilatların muzeyə ekskursiyaları təşkil olunub və bu ekskursiyalarda 1838 nəfər iştirak edib.

Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyi ümummilli liderimizin həyat və fəaliyyətinin öyrənilməsi baxımından böyük əhəmiyyətə malikdir. Muzeyin fondunda ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini özündə əks etdirən 4 min 552 eksponat mühafizə edilir.

## Yaponiyanın "World Investors TV" televiziyası yeni ildə ilk verilişini Naxçıvan Muxtar Respublikasına həsr edib

***Yaponiyanın "World Investors TV" internet televiziyası yeni ildə ilk verilişini Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr edib.***




Yanvarın 5-də AzərTAc-ın Yaponiyadakı bürosunun təşəbbüsü ilə canlı yayımlanmış verilişdə aparıcılar Kazuyasu İşida və Hiroko Ueyama Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası haqqında tamaşaçılara məlumat veriblər. K.İşidanın ötən ilin sonunda işıq üzü görmüş "Yaponların tanımadığı, sürətlə inkişaf edən ölkə – Azərbaycan" bələdçi kitabında bu qədim Azərbaycan torpağı haqqında da ətraflı məlumatların yer aldığı diqqətə çatdırılıb.

AzərTAc-ın Yaponiyadakı xüsusi müxbiri Vüqar Ağayevin də iştirak etdiyi verilişdə qeyd olunub ki, Azərbaycanın ən qədim ərazilərindən olan, "Şərqin qapısı" adlandırılan Naxçıvan dünya sivilizasiyalarının mərkəzlərindəndir. Azərbaycan xalqı bu diyarda tarixi çox qədimlərə gedib çıxan zəngin mədəniyyət yaradıb. Sistemli araşdırmalar sübut edib ki, Azərbaycanın tərkib hissəsi olan Naxçıvan 5 min ildən çox yaşı ilə dünyanın ən qədim yaşayış məskənlərindəndir. Naxçıvanın İpək Yolu kimi qədim ticarət yollarının qovşağında yerləşməsi bu ərazidə sivilizasiyanın inkişafına təkan verib.

Məhz bəşər övladının ilk mədəni nümunələrinin qorunduğu və Nuhun gəmisinin lövbər saldığı Gəmiqaya abidəsi, əsrlərə meydan oxuyan, yaşı min ildən çox olan Möminə xatın türbəsi, azərbaycanlıların qəhrəmanlıq simvolu, 14 il Əmir Teymurun qoşunları ilə mübarizədə təslim olmamış Əlincə qalası Naxçıvanda yerləşir. "Qurani-Kərim"in "Kəhf" surəsində bəhs edilən Əshabi-Kəhf ziyarətgahı da məhz Naxçıvandadır.

Vurğulanıb ki, Naxçıvanda böyük dövlətçilik ənənələrinin əsası çox qədim dövrlərdən qoyulub. Hələ X əsrdə Naxçıvan şahlığı, XII əsrdə isə Atabəylər dövləti yaranıb. XVIII əsrdə Azərbaycan ərazisində yaranmış 18 xanlıqdan biri olan Naxçıvan xanlığı inzibati idarəçiliyin formalaşmasına mühüm töhfələr verib. XX əsrin əvvəllərində 1 milyondan çox əhalisi olan Araz-Türk Respublikası Naxçıvanın müdafiə qabiliyyətinin möhkəmlənməsində və tarixi ərazisinin qorunmasında taleyüklü xidmətlər göstərib.

Bildirilib ki, Naxçıvanın muxtariyyəti dövlətçilik ənənələrinin davamı olaraq meydana gəlib. Naxçıvan Muxtar Respublikası 1918-1924-cü illərdə cərəyan edən gərgin siyasi proseslərin, daxili və xarici amillərin təsiri altında yaranıb. Naxçıvan əhalisinin qətiyyətli mübarizəsi, Türkiyə hökumətinin tutduğu ədalətli mövqe nəticəsində 1921-ci ildə Naxçıvanın muxtar respublika statusunda Azərbaycanın tərkibində qalmasını şərtləndirən Moskva və Qars müqavilələrinin imzalanması, bu sənədlər əsasında 1924-cü il fevralın 9-da Naxçıvan Muxtar Respublikasının təşkil olunması ilə birlikdə qədim diyarın təhlükəsizliyi və gələcək inkişafı da təmin edilib.

Qeyd edilib ki, dünyada və regionda gedən gərgin tarixi və siyasi proseslər nəticəsində Naxçıvan Muxtar Respublikası XX əsrin sonlarında yenidən dünyanın qaynar nöqtələrindən birinə çevrilib. Sovet İttifaqının son günlərində yaranmış siyasi vəziyyətdən istifadə etməyə çalışan ermənilər məkrli planlarını davam etdirərək Naxçıvanı Azərbaycandan qoparmağa cəhd ediblər. Nəticədə, Azərbaycan bir daha erməni terrorizmi ilə üzləşib. Ermənistan ərazisində yaşayan azərbaycanlılar öz ata-baba yurdlarından sürgün edilib, Qarabağ və Naxçıvan üzərinə silahlı hücumlar başlanıb.

Verilişdə vurğulanıb ki, əhalinin təkidli tələbi ilə 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə rəhbərlik etməyə razılıq verən ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü (1990-1993-cü illər) Azərbaycan tarixinin möhtəşəm səhifələrindəndir. Ulu öndər Heydər Əliyev Naxçıvanı Azərbaycanın müstəqillik mübarizəsinin ideya və real fəaliyyət mərkəzinə çevirib. Məhz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanın milli dövlət rəmzləri ilk dəfə Naxçıvanda qəbul edilib, muxtar respublikanın adından "sovet sosialist" sözləri çıxarılıb, Kommunist Partiyasının yerli orqanlarının işi dayandırılıb. Sovet qoşunları bölgədən çıxarılıb, aqrar islahatlar aparılıb, tarixi ədaləti və müstəqil dövlətçilik prinsiplərini bərqərar edən fərmanlar imzalanıb.

Verilişdə Naxçıvanın müalicəvi iqlimi, dərman bitkilərinin bolluğu, şəfalı mineral suları ilə fərqləndiyi də yapon tamaşaçıların diqqətinə çatdırılıb. Bildirilib ki, Naxçıvanın digər bir möcüzəli təbii sərvəti ocağı Duzdağ Fizioterapiya Mərkəzidir. Təbii ehtiyatları 90 milyon ton təşkil edən bu mərkəz saf və təmiz duz istehsalı ilə yanaşı, həm də şəfaverici xüsusiyyətlərinə görə tanınıb.

Qeyd edilib ki, bu gün də Naxçıvan Azərbaycanın idarəçiliyində muxtar respublika kimi mövcudluğunu qoruyur və inkişaf edir. Ermənistan tərəfindən blokadaya alınmasına baxmayaraq, Naxçıvanın inkişafı gündən-günə daha da sürətlənir. Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi barədə Sərəncamına əsasən, bu əlamətdar hadisənin yalnız Azərbaycanda deyil, dünyanın digər ölkələrində də qeyd olunması xüsusi vurğulanıb.

Verilişdə AzərTAc-ın "Gəzdim Azərbaycanı" layihəsi çərçivəsində Naxçıvan Muxtar Respublikası barədə çəkilmiş filmdən parçalar da tamaşaçılara təqdim olunub.

## Gənclərin mənzillərlə təmin olunması məqsədilə tikilən möhtəşəm kompleks: "Gənclər şəhərciyi"



***Tikinti sektorunun əsas istiqamətlərindən birini də əhalinin yeni mənzillərə olan tələbatını ödəmək təşkil edir. Son 20 il ərzində Naxçıvan şəhəri də daxil olmaqla, digər rayon mərkəzlərində yüzlərlə yaşayış binası əsaslı təmir olunub, mənzillərin sahəsi genişləndirilib, binaların əksəriyyətinin təməli möhkəmləndirilərək əlavə mərtəbələr artırılıb, binalar müasir kommunikasiya xətləri ilə təmin edilib. Təbii ki, yaradılan şərait bina sakinlərinin rahatlığının təmin olunması, onların yaşayış şəraitinin daha da yaxşılaşdırılması məqsədini daşıyır.***

Naxçıvanda əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində atılan bu addımlar son illərdə daimi yaşayış üçün muxtar respublikaya qayıdanların da sayının artmasına səbəb olub. Bundan əlavə, il ərzində muxtar respublikada, orta hesabla, 4 mindən çox gəncin ailə qurduğunu da nəzərə alsaq, mənzil bazarında mövcud tələbin ildən-ilə yüksəldiyini proqnozlaşdırmaq mümkündür. Gənc ailələrin bir qismi fərdi ev inşa etməyə, digər böyük bir hissəsi isə hazır mənzil almağa üstünlük verir. İl ərzində Naxçıvan Muxtar Respublikası üzrə əhalinin şəxsi vəsaiti hesabına tikilən, orta hesabla, 300 min kvadratmetr yaşayış sahəsinin də məhz böyük bir hissəsi belə ailələrin payına düşür. Təbii ki, Naxçıvanı yaşayış yeri seçənlər üçün burada qaz, elektrik, su təminatının yüksək səviyyədə olması, məhəllədaxili abadlıq və təmizlik işlərinin aparılması mühüm əhəmiyyətə malikdir.

Məlumdur ki, muxtar respublikada gənclərin mənzilə olan tələbatının ödənilməsi istiqamətində görülən işlərin tərkib hissəsi olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram"a əsasən, Naxçıvan şəhərinin Əziz Əliyev küçəsində yeni yaşayış kompleksinin – "Gənclər şəhərciyi"nin tikintisi aparılır. Onu da deyək ki, gənclərin mənzil təminatının ödənilməsi məqsədilə tikilən "Gənclər şəhərciyi" muxtar respublikada bu məqsədlə inşa olunan ilk yaşayış kompleksidir.

Hazırda ərazidə ikisi 9 mərtəbəli, ikisi 11 mərtəbəli olmaqla, 4 bina inşa olunur. Binalardakı mənzillər iki və üçotaqlı olub, müvafiq olaraq mənzillərin sahəsi 77 və 104 kvadratmetrdir. Binaların hər birində mansardtipli dam örtüklərinin vurulması işi aparılır, elektrik və kommunikasiya xətləri çəkilir, suvaq işləri görülür.

Məlumat üçün bildirək ki, "Gənclər şəhərciyi"ndə bu ilin mart ayında bir, iki, üç və dördotaqlı mənzillərdən ibarət olacaq beşinci binanın inşasına başlanılacaq.

Layihəyə uyğun olaraq, yaşayış binalarının hər birində sərnişin və yük lifti quraşdırılacaq, 323 yerlik yeraltı avtomobil dayanacağı yaradılacaqdır.

Şəhərciyin kommunal-məişət şəraiti və sosial infrastrukturu da ən müasir tələblər səviyyəsində qurulacaqdır. Həyətyanı sahədə müasir işıqlandırma və təhlükəsizliyi təmin etmək üçün videokamera sistemləri quraşdırılacaq, uşaq bağçası, basketbol və voleybol, eləcə də açıq şahmat meydançaları inşa olunacaqdır. Həmçinin kompleksi "Cahan" Ticarət Mərkəzi ilə birləşdirən yeraltı keçid istifadəyə veriləcəkdir.

## Məşğulluğun artırılmasında əmək yarmarkaları mühüm rol oynayır

***Əhalinin məşğulluğunun artırılması, yoxsulluğun tamamilə aradan qaldırılması muxtar respublikada daim diqqətdə saxlanılan məsələlərdəndir.***

Əmək ehtiyatlarından daha səmərəli istifadə edərək əhalinin məşğulluğunu təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nda qarşıya qoyulan vəzifələrin uğurlu icrası bu sahədə müsbət nəticələrin əldə edilməsinə geniş imkanlar açır. Dövlət proqramının aktiv məşğulluq tədbirləri üzrə bəndinin icrasına uyğun olaraq, əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə muxtar respublikada əmək bazarının tələbləri nəzərə alınmaqla əmək yarmarkaları təşkil edilir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətindən verilən məlumata görə, 2014-cü ildə Naxçıvan şəhərində və rayon mərkəzlərində 4 dəfə əmək yarmarkaları təşkil edilib. Əmək yarmarkalarına, ümumilikdə, 263 müəssisə və təşkilat tərəfindən 2030 boş iş yeri çıxarılıb. Keçirilən əmək yarmarkalarında 943 nəfər peşə və ixtisasına uyğun işlə təmin edilib, 9 nəfər peşə hazırlığına, 30 nəfər isə ictimai işlərə cəlb olunub. Muxtar respublikada təhsil və səhiyyə işçiləri üçün təşkil olunan əmək yarmarkaları da məşğulluğun artırılmasında mühüm rol oynayır. Belə ki, ötən il təhsil sahəsi üzrə keçirilən əmək yarmarkasında 93 nəfər, səhiyyə işçiləri üçün keçirilmiş əmək yarmarkasında isə 11 nəfər münasib işlə təmin olunub.

Məşğulluq tədbirlərinin davamlı xarakter alması əhalinin məşğulluğunun artırılması ilə yanaşı, sosial rifahın yüksəldilməsinə də hərtərəfli şərait yaradır.

**Xəbərlər şöbəsi**

*Naxışnərgiz kəndi Babək rayonunun inzibati xəritəsində kiçik yer tutan yaşayış məntəqələrindən biridir. Uzun illər bu kənddə heç bir sosial obyekt inşa edilməyib. Yaşayış məntəqəsində məktəb olmadığı üçün uşaqlar Qahab kəndindəki məktəbdə təhsil alıblar. Bunun da yaratdığı çətinlikləri təsəvvür etmək çətin deyil. İnfrastrukturun təkmilləşdirilməsi məqsədilə Naxışnərgiz kəndi müstəqil ərazi vahidinə çevrildikdən sonra burada müəyyən quruculuq tədbirləri həyata keçirilib. Ötən il dekabr ayının 8-də isə kənddə böyük bayram sevinci yaşanıb. Belə ki, kompleks quruculuq tədbirləri çərçivəsində yaşayış məntəqəsində kənd məktəbi üçün yeni bina, kənd və xidmət mərkəzləri istifadəyə verilib.*

*Müasirləşən kəndlərimiz*

# Ötən il Naxçıvanda müasirliyə qovuşan yaşayış məntəqələrindən biri: Naxışnərgiz



Yolumuz muxtar respublikanın müasir kəndləri sırasına qoşulan Naxışnərgiz kəndinədir. Kəndə gedən yol Qahab kəndindən keçir. Məlumat üçün bildirək ki, bir neçə ay əvvəl bu yaşayış məntəqəsinə də muxtar respublikada həyata keçirilən quruculuq tədbirlərindən pay düşüb. Yeni məktəb binası, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyaları, hərbi hissə istifadəyə verilib. Kəndarası yola asfalt döşənib. Qahab kəndi ilə Naxışnərgizi birləşdirən körpü yenidən qurulub. Həmin körpünü keçib Naxışnərgizə çatırıq. Budur, 234 şagird yerlik məktəb binasının qarşısındayıq. Məktəb barədə qısa məlumatımız ondan ibarətdir ki, hazırda burada 133 şagird oxuyur, onların təlim-tərbiyəsi ilə 24 müəllim məşğul olur. Yeni məktəb binasında 13 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat otağı, 19 kompüter quraşdırılmış və internetə qoşulmuş kompüter otağı, 3 elektron lövhəli sinif, müəllimlər otağı, 2882 kitab fondu olan kitabxana, bufet, idman zalı və açıq idman qurğuları müəllim və şagirdlərin ixtiyarına verilib.

Məktəbin həyatında söhbət edən iki müəllimlə görüşürük. Razi Adıgözəlov və Dilsuz Qasımov Naxışnərgiz kəndinə göstərilən dövlət qayğısı, konkret olaraq elə həyətində söhbət etdiyimiz yeni məktəb binası üçün minnətdarlıqlarını bildirirlər. Razi müəllim deyir:

– Muxtar respublikada geniş vüsət alan kompleks quruculuq tədbirlərinin tərkib hissəsini təşkil edən məktəb tikintiləri təhsildə böyük uğurlara yol açıb. Son illərin statistikası da belə deməyə tam əsas verir ki, çəkilən zəhmət hədər getmir, göstərilən qayğı bəhrəsiz qalmır. Bu tədbirlərdən Naxışnərgiz kəndinə də pay düşməsi sakinlərin böyük sevincinə səbəb olub. Bu, məsələnin bir tərəfidir. Yeni məktəb binası ilə kollektivimiz qarşısında savadlı, intellektli gənclər yetişdirmək kimi mühüm vəzifələrin qoyulması məsuliyyətimizi daha da artırıb. Ona görə də çalışırıq ki, tədrisin keyfiyyətini yüksəldək, məktəbimizin muxtar respublikanın qabaqcıl təhsil ocaqlarından birinə çevrilməsinə nail olaq. Təhsil ocağının yeni binasında yaradılmış şərait isə məqsədimizə çatmağa tam imkan verir.

Dilsuz Qasımov:

– Müasir tədris avadanlıqları ilə təmin olunan yeni məktəb binası kənddə gənclərin təhsilli böyüdülməsinə şərait yaradıb. Kollektivimiz unutmur ki, ölkənin gələcəyi məktəblərdə hazırlanır. Ona görə də çalışırıq ki, müasir tədris metodlarından istifadə edək, intellektli gənclər yetişdirək. Elə gənclər ki, vətənpərvər olsunlar, dövlətçiliyimizə, müstəqilliyimizə sədaqəti özlərinin həyat amallarına çevirsinlər. Çünki hər bir xalqın gələcəyinin necə qurulması onun gənclərinin yetişdirilməsindən asılıdır.

Bu an yaşlı bir sakin bizə yaxınlaşır, hal-əhval tutur. Öyrənirik ki, İsmayıl Zamanov el ağsaqqalıdır. Onun ürək sözlərini dinləyirik:

– Aparılan kompleks quruculuq tədbirləri Naxışnərgizi qəsəbə timsallı müasir kəndə çevirib. Təbii ki, bütün bunlar insanların qurub-yaratmaq əzminə öz təsirini göstərib. Odur ki, kənd adamları qiymətli sərvət olan torpaqdan möhkəm yapışıblar. Bir ağsaqqal kimi onu da deyim ki, ağlım kəsəndən kənd camaatını əkinçiliklə məşğul olan görmüşəm. Doğrudur, onlar çox zəhmət çəkir, qazancları isə cüzi olurdu. Bununla belə, ailələrini birtəhər dolandırırdılar. İndi, şükür ki, hər şey kəndlinin öz ixtiyarındadır. Sulu, bol-bərəkətli torpaqlar bir kəndlilərə təmənnasız verilib; qazancımıza şərik çıxmaq istəyən də yoxdur. Əksinə, dövlətimiz torpaq mülkiyyətçilərinə hərtərəfli qayğı göstərir, lazımi qədər maliyyə yardımı, toxum, gübrə, texnika verir. İstəyir ki, heç bir çətinliyimiz olmasın, torpağımızı rahat əkib-becərək, yaxşı dolanaq. Torpaq mülkiyyətçiləri yaradılan şəraitdən səmərəli istifadə etməyə çalışır, muxtar respublika iqtisadiyyatının gücləndirilməsinə öz töhfələrini verirlər.

Həmin gün Naxışnərgizdə yeni kənd mərkəzinin açılışı olub. İki mərtəbədən ibarət olan kənd mərkəzində rabitə evi, polis sahə və baytarlıq məntəqələri, feldşer-mama məntəqəsi, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, kənd klubu və 54 yerlik iclas zalı yerləşir. Mərkəzin birinci mərtəbəsində yerləşən rabitə evində elektron ATS quraşdırılıb, poçt bölməsinin fəaliyyəti təmin edilib.

Kənd mərkəzindəki kitabxanada oxucuların istifadəsinə 7469 kitab verilib.

Binada feldşer-mama məntəqəsi üçün də 4 iş otağı ayrılıb, məntəqə lazımi dərman vasitələri, ilkin tibbi yardım və peyvənd çantaları ilə təmin olunub. Tibb məntəqəsinə baş çəkirik. Hər tərəfdə səliqə-sahman diqqətimizdən yayınmır. Tibb məntəqəsinin müdiri Gülsüm Abbasova: – İnsan ona göstərilən qayğını görəndə, təbii ki, onun qurub-yaratmaq əzmi yüksəlir. Bu hissi bu gün Naxışnərgizdə hamı yaşayır. Biz də öz üzərimizə düşən vəzifələri yerinə yetirməyə çalışırıq. Bir ziyalı kimi Naxışnərgizə, onun yurdsevər insanlarına göstərilən qayğıya görə dövlətimizə minnətdarlığımı bildirirəm.

Naxışnərgiz kəndində yeni istifadəyə verilən xidmət mərkəzində bərbərxana, gözəllik salonu, ərzaq və sənaye malları mağazaları vardır. Mağazalarda ərzaq məhsullarının, gündəlik tələbat mallarının, eyni zamanda geyim dəstlərinin, məktəbli formalarının və təsərrüfat mallarının satışı təşkil olunub.

Kənd ziyalısı İsmayıl Ağamalıyev:

– Bu gün kəndimiz yeni tikililər hesabına öz simasını tamamilə dəyişib, muxtar respublikanın abad yaşayış məntəqələrinin sırasına qoşulub. Görülən bu işlər kəndlə şəhər arasında fərqin aradan qaldırılmasına səbəb olub. Onu da xüsusilə qeyd edim ki, Naxışnərgizdə gənclər ağbirçək və ağsaqqallara böyük hörmət, ehtiram göstərirlər. Onlar milli adət-ənənələrimizə, milli geyimlərimizə hörmətlə yanaşırlar. Xüsusən də xeyir-şər məclislərində birlik nümayiş etdirirlər.

Kənddə kiminlə həmsöhbət oldumsa, hamı Naxışnərgizin abad yaşayış məntəqəsinə çevrildiyini, insanların rifahının yüksəldiyini, problemlərinin vaxtlı-vaxtında həll olunduğunu bildirdi.

– Naxışnərgiz kəndində abadlıq işləri də aparılıb, kənddaxili 1400 metrlik yola asfalt örtük salınıb, 12 ədəd su keçidi qoyulub, 1 körpü təmir olunub, 950 metr uzunluğunda beton kanal tikilib. Sirab kəndindən Naxışnərgiz kəndinədək 3484 və kənddaxili 200 metr fiber-optik kabel çəkilib, 2000 metrlik elektrik xətti yenilənib, 1420 metr qaz və 1050 metr içməli su xətti çəkilib, – bu sözləri kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Ceyhun Zamanov deyir və əlavə edir:

– Naxışnərgiz kəndində gördükləriniz muxtar respublikada ulu öndərimiz Heydər Əliyevin quruculuq siyasətinin uğurla davam etdirilməsinin bəhrələridir. Ona görə də qurulanları, yaradılanları qorumağı, gələcək nəslə ərməğan etməyi hər bir naxışnərgizli özünün vətəndaşlıq borcu sayır.

...Bir anlığa yadıma Naxçıvana paytaxt Bakı şəhərindən gəlmiş qonaqlardan birinin söhbəti düşür:

– Naxçıvana hər gəlişimdə çoxsaylı yeniliklərin şahidi oluram. Xüsusilə də tikinti-quruculuq tədbirləri qədim yurd yerinin həyat ritminə çevrildiyindən belə yeniliklərin sayı saatbasaat artır. Yaxşı haldır ki, bu proses təkcə Naxçıvan şəhəri və rayon mərkəzləri ilə məhdudlaşmır, kəndləri də əhatə edir. Naxçıvanlılar bütün bunları hər gün görməyə adət ediblər. Ona görə də belə yeniliklər onlara adi görünür...

Doğrudan da, belədir. Günü-gündən müasir yaşayış məntəqəsinə çevrilən kəndlərimizin sayı artmaqda, şəhərlə kənd arasındakı fərq aradan götürülməkdədir.

*Beləcə, "Muxtariyyət ili" naxışnərgizlilərin yaddaşına onlara göstərilən davamlı dövlət qayğısı kimi yazıldı.*

**Muxtar MƏMMƏDOV**

---

*Son illər muxtar respublika iqtisadiyyatında yüksək templə inkişaf edən sahələrdən birinə çevrilən və yerli istehsalın stimullaşdırılmasında mühüm əhəmiyyətə malik olan sənaye sektorunda həyata keçirilən tədbirlər Naxçıvanın aqrar regiondan sənaye regionuna çevrilməsinə şərait yaradıb, nəticədə, muxtar respublikada müxtəlif çeşidlərdə yüksəkkeyfiyyətli məhsullar istehsal edən rəqabətqabiliyyətli müəssisələr fəaliyyətə başlayıb.*

*İstehsal müəssisələri*

# Gəmiqaya Mebel Fabrikinin ixrac potensialı artır



Belə müəssisələrdən biri də "Gəmiqaya Mebel Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Mühəndis Rövşən Mehdiyev bizimlə söhbətində qeyd etdi ki, müəssisədə Almaniya, İtaliya və Türkiyə respublikalarından alınmış müasir texnoloji avadanlıqlar quraşdırılıb, müxtəlif çeşiddə keyfiyyətli məhsul istehsalı üçün geniş imkanlar yaradılıb. Mebel fabrikində divan, kreslo və yumşaq oturacaqlı stullar, döşəmə, həmçinin ofis, mətbəx, yataq mebelləri, qapı-pəncərə, dekorasiya və qapı-pəncərələrin boyanması üçün boyaqxana sexləri fəaliyyət göstərir. Burada ağac profilli qapı və pəncərələr, modern və klassik üslubda dizayn edilmiş mebellər, sosial və inzibati binalar üçün müxtəlif avadanlıqlar istehsal edilməklə yanaşı, dizayn-dekorasiya xidmətləri də göstərilir.

Fabrikdə tətbiq olunan keyfiyyətə nəzarət sistemi mebel istehsalında istifadə olunan materialların və hazır məhsulların davamlılığını, uzunömürlülüyünü təmin edir. Material kimi istifadə olunan məhsulların bir qismi Türkiyə Respublikasından, Afrika ölkələrindən, Gürcüstan Respublikasından idxal olunur.

2010-cu ilin yanvar ayından fəaliyyətə başlayan müəssisədə mebel istehsalı sahəsində təcrübəli mütəxəssislər çalışırlar. Fabrikdə işçilərin sağlamlığının mühafizəsi də diqqət mərkəzində saxlanılıb, xüsusi havatəmizləyici qurğu quraşdırılıb.

Müəssisədə istehsal prosesi avtomatlaşdırılıb, texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunmaqla normal iş şəraiti yaradılıb. Burada fəaliyyət göstərən laboratoriyada müasir avadanlıqlar quraşdırılıb ki, bu da istər xammal, istərsə də hazır məhsulların keyfiyyət göstəricilərinə nəzarətin təmin olunmasına imkan verir. Hazırlanan məhsullar "Gəmiqaya" əmtəə nişanı ilə fabrikin sərgi-satış salonunda, Naxçıvan şəhərinin "Təbriz" küçəsində, Babək məhəlləsində və Ordubad şəhərində fəaliyyət göstərən mebel mağazalarında satışa çıxarılır. Müəssisədə istehsal olunan klassik, avanqard və modern mebellər ölkəmizin paytaxtında və digər regionlarda da alıcılar tərəfindən rəğbətlə qarşılanır. Hazırda fabrikin Bakı şəhərinin Nərimanov və "Neftçilər" prospektlərində, Sumqayıt, Goranboy, Lənkəran şəhərlərində satış mərkəzləri fəaliyyət göstərir. Müəssisənin satış mərkəzlərinə müraciət edən müştərilərə zövqlərinə və ev şəraitinə uyğun müxtəlif çeşiddə mebellər təklif olunur. Müştərilər hazır mebelləri satış mərkəzlərindən seçə və ya sifariş verə bilərlər.

Hazırda istehlakçılar tərəfindən həm klassik, həm də modern üslubda hazırlanan mebellərə böyük tələbat var. Naxçıvan şəhərində ayrı-ayrı ünvanlarda fəaliyyət göstərən mebel mağazalarında müştərilərin bu yerli məhsula olan münasibətlərini öyrəndik. Naxçıvan şəhər sakini Məhsəti Nəcəfova qeyd etdi ki, yeni mənzil almışıq. Evimizin dizaynına uyğun mebel seçdik. Burada öyrəndik ki, mebellərin çatdırılması və quraşdırılması öz mütəxəssisləri tərəfindən pulsuz yerinə yetirilir. Mebellərin keyfiyyətindən və göstərilən xidmətdən çox razıyıq.

Ordubad rayon sakini Nərminə Cəfərova isə alıcı zövqünü oxşayan hər cür mebellərin olduğunu bildirdi və onu da qeyd etdi ki, müştərilərə hər evin ölçüsünə və dizaynına uyğun mebelləri sifariş vermək mümkündür. Bu, çox yaxşı haldır və hər bir müştərinin üləyincədir.

Naxçıvan şəhər sakini Nemət Babayev: "İstehsal olunan məhsulların keyfiyyətli olması işin bir tərəfidirsə, onu olduğu kimi müştəriyə çatdırmaq başqa bir tərəfidir. Yəni bir-birini tamamlayan ayrı-ayrı sahələrdir. "Gəmiqaya Mebel Fabriki"ndə bu mühüm əhəmiyyətli sahə diqqət mərkəzində saxlanılır. İstehsal və satış gününün tələbləri səviyyəsində qurulub. Bu həm istehsalçı, həm də istehlakçının mənafeyinə xidmət edir. Ailə həyatı qurub Bakı şəhərində yaşayan övladım üçün mebel almaq istəyirdim. Öyrəndim ki, Bakı şəhərində də müəssisənin mebel mağazaları fəaliyyət göstərir. Mebeli aldım. Həm məhsulun keyfiyyətindən, həm də göstərilən xidmətdən çox razıyam".

Məhsulları keyfiyyəti ilə seçilən "Gəmiqaya Mebel Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyəti qısa zamanda rəqabətqabiliyyətli müəssisəyə çevrilib. Burada istehsal olunan mebellər daxili bazarda özünə böyük istehlakçı kütləsi toplayıb. Müəssisədə istehsal olunan mebellərin xarici bazarlarda tanıdılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. Müəssisənin Gürcüstan Respublikasının Batumi şəhərində satış mərkəzi yaradılıb, "Gəmiqaya" əmtəə nişanı ilə satışa çıxarılan keyfiyyətli mebellərin satışı təmin olunub. Digər xarici ölkələrdə də müəssisədə istehsal olunan mebellərin satışa çıxarılması nəzərdə tutulur.

Fabrikdə 355 nəfər daimi işlə təmin olunub. Kollektiv əməyin məhsuludur ki, "Gəmiqaya Mebel Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyətinin məhsullarına tələbat artıb, ixrac potensialı genişlənib. Ötən il 4 milyon 500 min manatdan çox məhsul istehsal edilib satışa çıxarılıb. İşçilərdən Ələsgər Məmmədov, Nurlan Mərdanov, Fərzalı Fərzalıyev, Asim Abbasov, Toğrul Həsənov və başqaları yaradılan şəraitdən razılıqlarını dilə gətirərək yüksək əmək haqqı, xüsusi geyim formaları, gündə bir dəfə isti yemək və servis xidməti ilə təmin olunduqlarını bildirdilər. Onu da qeyd etdilər ki, bunun müqabilində daha səylə çalışır, keyfiyyətli məhsul istehsalı üçün mövcud imkanlardan səmərəli istifadə etməyə səy göstəririk. Çünki istehsal olunan məhsulların daha çox alıcısı olması həm müəssisənin imkanlarını artırır, nəticədə, yeni istehsal sahələri yaradılır, əlavə iş yerləri açılır, həm də işçilərin əməkhaqlarının artırılmasına səbəb olur. Bu, hər bir işçinin ailə büdcəsinin daha da yaxşılaşması deməkdir.

**Kərəm HƏSƏNOV**

*Naxçıvan şəhərinin mərkəzində unudulmaz, qəhrəman sərkərdəmiz Cəmşid xan Kəngərli – Naxçıvanskinin ev-muzeyi yerləşir. Bura onun doğulduğu və ömrünün 12 ilini yaşadığı evdir. Naxçıvanlıların dedikləri kimi, Cəfərqulu xanın evidir. Tez-tez yolumu buraya salır, buradakı sərgilərə, albomlara baxıram, nəsə axtarıram, bəlkə də, illərlə daxilimdə yığılan suallara cavab axtarıram.*



*Anadan olmasının 120 illiyi qarşısında*

# Azərbaycanın ilk milli atıcı diviziyasının yaradıcısı general-mayor *Cəmşid xan Kəngərli – Naxçıvanski*

Naxçıvandan Tiflisə onu 1907-ci ildə atası Cəfərqulu xan aparmışdı. 12 yaşınadək evdə və Naxçıvan şəhər qəza məktəbində təhsil almışdı. Onun mənsub olduğu Kəngərli tayfasının əksəriyyətinin hərbçi, xüsusilə süvari döyüşçü olması, həmçinin atası Cəfərqulu xanın və əmilərinin adlı-sanlı hərbçi sərkərdələr kimi tanınmaları onu Tiflisdəki hərbi məktəbə – kadet korpusa gətirib çıxarmışdı.

8 iyul 1875-ci ildə yaradılan Tiflis Hərbi Yarımgimnaziyası (bu gimnaziya gəncləri ali hərbi məktəblərə qəbul olunmaq üçün hazırlayırdı) 1882-ci il iyulun 22-də Rusiyanın Hərbi Nazirliyi nəzdində qalmaqla, Tiflis Kadet Korpusuna çevrildi. Həmin bina öz əzəmətli görkəmi ilə indiyədək qalmaqdadır.

Qaydaya görə, Cəmşid xan kadet məktəbin 2-ci sinfinə daxil olmalı idi. Amma atasının arzusunu nəzərə alaraq onu gimnaziyanın birinci sinfinə qəbul etdilər. Cəfərqulu xan istəyirdi ki, oğlu gələcəkdə hərbi məktəbə daxil olmaq üçün biliklə bərabər, hərbi vərdişlər də öyrənsin. Bunun üçün 7 il Cəmşid xan bu gimnaziyada oxumalı idi. Amma 1914-cü il iyulun 21-də Almaniyanın Rusiyaya müharibə elan etməsi ölkənin təhsil müəssisələrinə də öz təsirini göstərdi.

1914-cü ilin martında Cəmşid xan Tiflis Kadet Korpusunda (zadəgan balaları üçün hərbi məktəbdə) yeddiillik təhsilini başa vurdu. Tiflisdəki hərbi hissədə üçaylıq hərbi xidmətdə olandan sonra, yəni həmin ilin 8 iyununda ona birinci dərəcəli yunker-unter (gənc zabit) hərbi rütbəsi verildi.

Buraxılış imtahanını uğurla verib şəhadətnaməsini aldıqdan sonra oxumaq üçün Qərbi Ukraynanın Yelizavetqrad (sovet illərində – Kirovqrad) şəhərindəki Süvari Hərbi Məktəbə oxumağa göndərildi.

1914-cü il avqustun 1-də Yelizavetqrad Süvari Hərbi Məktəbinə gələn Cəmşid xan biraylıq yoxlamadan sonra həmin məktəbə oxumağa qəbul edilir. Bu hadisə 30 avqust 1914-cü ildə baş verir. Qeyd edək ki, o, bu hərbi məktəbdə oxuyarkən yunker idi. Artıq Birinci Dünya müharibəsi başlanmışdı. Ona görə də çar hökuməti praporşik hərbi rütbəsi üçün vaxt müddətini 8-12 aydan 4 aya endirmişdi.

6 sentyabr 1914-cü ildə Cəmşid xan Naxçıvanski hərbi and içir və 1 sentyabr 1914-cü ildən sonra Rusiya imperiyasının ordusunda hərbi xidmətə başlayır.

1 dekabr 1914-cü ildə Cəmşid xana ilk zabit hərbi rütbəsi – praporşik rütbəsi verilir. Bu zaman Qafqaz Yerli Süvari Diviziyası üçün zabitlərdən ibarət altı ehtiyat yüzlüklər (sotnyalar) yaradılırdı. Gənc zabit Cəmşid xan da könüllü ərizə verərək ehtiyat yüzlüyə qəbul edilməsini bildirir. O, sınaq-yoxlamalardan keçmək üçün raport da yazır. 1915-ci ilin aprel ayından ehtiyatda olan 1-ci yüzlükdə hərbi xidmətə qəbul edilir. Həmin ilin mart ayında isə tatar (azərbaycanlı) süvari polkunda həqiqi hərbi xidmətə başlayan Cəmşid xan mart ayının 4-də polka gəlir və mart ayının 7-də ilk döyüş tapşırığını alır. Arxiv sənədlərindən məlum olur ki, Cəmşid xanın hərbi fəaliyyəti, əsasən, tatar süvari alayı ilə bağlı olmuşdur.

Tatar süvari polkuna məxsus olan 203 nömrəli əmrdə (22 iyul 1915-ci il) bildirilir ki, praporşik Xan Naxçıvanski düşmənlə döyüşdə göstərdiyi şücaətə görə 4-cü dərəcəli, üzərində "İgidliyə görə" sözləri yazılmış "Müqəddəs Anna" ordeni ilə təltif edilir. Bu yüksək hərbi mükafat gənc zabitə 14 fevral 1916-cı ildə verilir.

Qeyd edək ki, o, 1915-ci il 19-27 avqust tarixlərində gedən şiddətli döyüşlərdə yaralanır. Novoselka kəndi yaxınlığında gedən döyüşlərdə göstərdiyi igidliyə görə Cəmşid xana "Georgi silahı" vermək təklifini cəbhənin Georgi duması bəyənmir. Əsas da göstərilir ki, döyüşçü bu hərbi mükafat üçün çox gəncdir.

12 sentyabr 1915-ci ildə Kosovo kəndi ətrafında gedən döyüşlərdə Cəmşid xan Naxçıvanski 3-cü dərəcəli "Müqəddəs Stanislav" (qılınclarla və bantla) ordeni ilə təltif olunur. Qeyd edək ki, bu mükafat kornet Cəmşid xana 12 may 1916-cı ildə elan edilir.

Tatar süvari alayı bu döyüşlərdə misilsiz şücaətlər göstərdiyindən xüsusi döyüş bayrağı ilə (ştandart) mükafatlandırılır və 18 fevral 1916-cı il tarixdə 30 nömrəli protokola əsasən verilmiş əmrlə kornet Cəmşid xan Naxçıvanski tatar süvari polkunun birinci yüzlüyünün birinci vzvodunun (manqasının) komandiri təyin edilir. O, Qafqaz Süvari Polkunun (alayının) ən gənc komandirlərindən idi.

Tatar süvari polkunun komandiri polkovnik A.P.Polovçev 5 iyul 1916-cı ildə kornet Cəmşid xana "Georgi silahı" hərbi mükafatının verilməsi üçün cəbhənin Georgi dumasına məktub göndərir.

26 yanvar 1917-ci il tarixli əmrlə Cəmşid xan "Georgi silahı" ilə təltif edilir. Rusiya imperiyasının bu yüksək ali hərbi mükafatını böyük knyaz Georgi Mixailoviçin özü cəbhədə Cəmşid xana təqdim edir.

Cəmşid xan həmin ilin 9 mayında poruçik, 30 iyulunda isə ştabs-rotmistr hərbi rütbələrini almışdır. İki il yarım Qalitsiyada gedən döyüşlərdə göstərdiyi qəhrəmanlıqlara görə aldığı hərbi rütbələr və mükafatlar onun hərbi sahədəki fitri istedadından xəbər verir.

1917-ci ilin sentyabr ayında general Kornilovun uğursuz yürüşündən sonra Qafqaz Süvari Alayının digər alayları kimi, tatar alayı da Qafqaza qayıtmalı olur.

Qəhrəman süvari döyüşçü Cəmşid xan Naxçıvanskinin hərbi fəaliyyətinin ikinci mərhələsi başlayır.

Yerli süvari diviziyası 1917-ci ildə Qafqaza qayıdır. Bu zaman Cəmşid xan tatar alayı ilə birlikdə Gəncə şəhərinə gəlir. 1918-ci ildə o, öz polku ilə birlikdə bolşeviklərə qarşı vuruşur. Qeyd edək ki, Cəmşid xanın alayı Bakının işğalçılardan azad edilməsində böyük hünər göstərir. Həmin ilin 30 iyulunda Azərbaycan Xalq Cümhuriyyəti Hərbi Nazirliyinin əmri ilə rotmistr Cəmşid xan Naxçıvanskiyə podpolkovnik rütbəsi verilir və o, birinci tatar süvari polkunun köməkçisi vəzifəsinə təyin olunur.

Hərbi Nazirliyin 24 mart 1920-ci il tarixli 163 nömrəli əmrinə əsasən, Cəmşid xan ikinci Qarabağ süvari polkunun komandiri təyin edilir. Ona böyük bir riskli iş tapşırılır: Qarabağdakı Əsgəran qalasını erməni daşnaklarından təmizləmək. O, aprel ayının 12-dək Ağdamı və Xankəndini, eləcə də Şuşanı erməni quldurlarından təmizləyir. Azərbaycanın Milli Ordusu bayram təntənəsi yaşayır.

Qarabağı daşnaklardan xilas edən Cəmşid xan Azərbaycanda sovet hökuməti qurulandan sonra N.Nərimanovun dəvəti və məsləhəti ilə özünün tatar alayı ilə birlikdə bolşevik hökumətində xidmət etməyə razı olur. Onun alayının adı dəyişdirilərək birinci fəhlə-kəndli süvari polku adlanır. 28 aprel 1920-ci ildən etibarən Cəmşid xanın fəaliyyətinin üçüncü dövrü başlanır. Ancaq 31 may 1920-ci ildə sovet çekası tərəfindən müsavat ordusunun zabiti kimi həbs olunur. XI qızıl ordunun xüsusi şöbəsi tərəfindən həmin ilin avqust ayında həbsdən azad edilir və yenicə fəaliyyətə başlayan komandirlər məktəbində işə göndərilir. O, burada məktəbin rəisinin köməkçisi vəzifəsinə təyin edilir.

Cəmşid xan Naxçıvanski 1921-ci ildə Azərbaycanın ilk milli atıcı diviziyasını yaradır və həmin diviziyaya komandir təyin olunur.

1923-cü ildə Moskvadakı fəhlə-kəndli ordusunun Hərbi Akademiyasına birillik kursa oxumağa göndərilən Cəmşid xan yenidən Bakıya qayıdıb atıcı diviziyasına komandirlik edir. O, Azərbaycanın müxtəlif yerlərində – Kürdəmirdə, Göyçayda, Naxçıvanda, Nuxada (indiki Şəkidə) və Qarabağda qiyamların yatırılmasında iştirak edir, Lənkəranda və Qubada qaçaq-quldurlarla döyüşür. Qeyd etmək yerinə düşər: Cəmşid xan savadsız, könüllü gənclərdən nümunəvi, intizamlı ordu bölməsi yaradıb. Onun yaratdığı Azərbaycan diviziyası sonralar keçmiş SSRİ-nin silahlı qüvvələrinin hərbi salnaməsinə parlaq səhifələr yazıb.

Cəmşid xan 1927-ci ildə yenidən hərbi akademiya kurslarına göndərilir. 1928-ci ildə onu Sevastopol şəhərində təşkil edilən sərhəd qoşunlarının kurslarına oxumağa göndərirlər. Onun təşkilatçılıq və tərbiyəçilik istedadı, həmişə səliqəli, intizamlı, səmimi, tələbkar olması və prinsipiallığı yüksək qiymətləndirilib. Xidmət etdiyi illərdə onu fəxri silahla və qızıl saatlarla, "Qırmızı Əmək Bayrağı" (29 oktyabr 1930-cu il) və "Qızıl ulduz" ordenləri ilə təltif edərək pul mükafatları veriblər. Cəmşid xan Bakı Sovetinin Mərkəzi İcraiyyə Komitəsinin və Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin üzvü seçilib. Amma onu Kommunist Partiyasına üzv qəbul etməyiblər, çünki o, zadəgan oğlu idi.

22 fevral 1931-ci ildə onu Tiflisdə (Tbilisidə) Zaqafqaziya Siyasi İdarəsinin xüsusi şöbəsi həbs edir. Cəmşid xanı gizli aksinqilabi təşkilata üzv olmaqda və sair təbliğatlarda günahlandırırlar. Özünü yazdığı izahatlarda günahsız bilsə də, Azərbaycan Siyasi İdarəsinin kollegiyasının 30 oktyabr 1931-ci il tarixli qərarı ilə təqsirkar bilinərək onun güllələnməsinə göstəriş verilir. Ancaq, hələlikdə, bizə məlum olmayan səbəblərdən onu güllələmirlər, 1932-ci ilin fevralında həbsdən azad edib yenidən orduya hərbi xidmətə göndərirlər.

Bütün bu hadisələr onu məcbur edir ki, əsas rəqibi M.C.Bağırovun gözündən uzaq olsun. Ona görə də Moskvaya köçməyi qərara alır.

M.B.Frunze adına Akademiyanın rəisi B.M.Şapoşnikovun 17 fevral tarixli əmri ilə Cəmşid Naxçıvanski akademiyanın Ümumi taktika kafedrasının rəhbəri təyin edilir. Qeyd edək ki, artıq bu illərdə onun adının qarşısında xan titulu yazılmırdı.

17 iyun 1935-ci il tarixli əmrdə deyilir ki, Cəmşid Naxçıvanskinin rəhbərlik etdiyi ikinci kursun müdavimləri döyüş və siyasi hazırlıqda böyük müvəffəqiyyətlər qazanıblar. 1935-ci il dekabr ayının 5-də Cəmşid Naxçıvanskiyə kombriq (general-mayor) hərbi rütbəsi verilir.

1936-cı il noyabrın 7-də Moskvada qızıl meydanda keçirilən hərbi paradda Cəmşid Naxçıvanskinin başçılıq etdiyi üçüncü batalyon da iştirak edib.

1937-ci ilə aid arxiv sənədlərində Cəmşid Naxçıvanski tədris prosesinin yaxşı təşkilinə, döyüş və siyasi hazırlıq işlərində yüksək göstəricilərinə görə birinci fakültənin ikinci kurs rəisi kimi 28 may tarixli əmrlə mükafatlandırılır.

General-mayor Cəmşid xan Naxçıvanskini 20 may 1938-ci ildə həbs edirlər. Paxıllığını çəkənlər onun həbsində çox fəallıq göstəriblər. Onların ifadələri istintaq materiallarında vardır. 97 gün sovet çekistləri Cəmşid xan Naxçıvanskiyə ağlasığmaz işgəncələr veriblər. Həmin il avqust ayının 26-da onu güllələyiblər. Baxmayaraq ki, Cəmşid xan Naxçıvanski XIX əsrdə Kəngərlilər nəslindən yetişən beş generalın varisi, özü keçmiş sovet Azərbaycanının birinci generalı olsa da, 1969-cu ilədək onun haqqında yazmaq yasaq idi.

1969-cu ildə Azərbaycana rəhbər seçilmiş ümummilli liderimiz Heydər Əliyevin cəsarəti və qorxmazlığı sayəsində onun adı hərb tariximizdə bəraət aldı. Daha doğrusu, bu bəraət ona ümummilli liderimiz Heydər Əliyevin sayəsində verildi. Bakıda və doğulduğu Naxçıvan şəhərində adı əbədiləşdirildi. Ensiklopediyalarda "Sovet Silahlı Qüvvələrinin görkəmli xadimi, Azərbaycan Atıcı Diviziyasının komandiri Cəmşid xan Cəfərqulu xan oğlu Naxçıvanski..." ünvanlı məqalələr işıq üzü gördü.

Azərbaycan yenidən müstəqilliyini bərpa edəndən sonra ümummilli liderimiz gənc hərbçilərlə görüşündə deyirdi: ***"...Hələ çar Rusiyası dövründə azərbaycanlılardan rus ordusunda böyük sərkərdələr, böyük generallar olubdur: Əliağa Şıxlinski, Səmədağa Mehmandarov, Cəmşid Naxçıvanski. Bir tək Naxçıvanski deyil, Naxçıvan xanlarının övladlarından 6 nəfər çar Rusiyasının ordusunda general rütbəsində çalışıbdır. Bir çoxları da Birinci Dünya müharibəsində iştirak ediblər".***

Biz dönə-dönə Cəmşid xan Kəngərli – Naxçıvanski haqqında yazacağıq. Çünki üç müxtəlif quruluşda hərbi xidmətdə olan, şücaətlə döyüşən və hərbi ordenlər, mükafatlar alan, milli diviziya yaradan (sonralar onun yaratdığı diviziyanı S.Orconikidze adına 77-ci Qırmızı Bayraq ordenli və Suvorov ordenli, Simferopol Atıcı Diviziyası adlandırmışlar) igid sərkərdə Cəmşid xan Naxçıvanski haqqında Kiyevdə, Moskvada və digər şəhərlərdə yerləşən hərbi arxivlərdə, hələlikdə, üzə çıxarılmayan sənədlər vardır.

***Unudulmaz sərkərdəmizin anadan olmasının 120-ci ili 2015-ci ildə tamam olur. Biz axtarışlarımızı dərinləşdirməklə bərabər, arzu edərdik ki, orta məktəblərimizin hərbi kabinələrində onun fotoşəkli asılsın, həyatı və fəaliyyəti gənc nəslə layiqincə öyrədilsin. Milli, vətənpərvər sərkərdəmiz Cəmşid xan Naxçıvanski adı bütün yüzilliklərdə minnətdarlıqla yad edilməyə layiq bir qəhrəmandır.***

**Musa QULİYEV**
*AMEA Naxçıvan Bölməsinin böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru*

*Yeni nəşrlər*

## Bir dövrün arxeoloji abidələrinin monoqrafik tədqiqi




Tarix həmişə bütün xalqların, dövlətlərin özlərini sübut etmək üçün söykənəcək yeri olub. Kimi yaşadığı ərazidə, kimisi də zaman etibarilə lap qədim dövrlərdən var olduğunu sübut etməyə çalışıb. Bu baxımdan alimlərin üzərinə böyük məsuliyyət düşür. Müasir günümüzədək gəlib çıxan maddi-mədəniyyət nümunələrini üzə çıxarmaq və həmin maddi əşyalara əsaslanaraq xalqın qədimliyinə işıq tutmağa çalışmaq elm adamlarının əsas vəzifəsi olub.

Sevindirici haldır ki, qədimliyi, maddi-mədəniyyətinin, mənəvi irsinin zənginliyi ilə qürur duyduğumuz Azərbaycan xalqının bu cür tarixi sübutları yetərincədir.

Ayrı-ayrı yaşayış məntəqələrinin, çay vadilərinin arxeoloji tədqiqatı zamanı üzə çıxarılan elmi yeniliklər onu deməyə əsas verir ki, Naxçıvan təkcə Azərbaycanın deyil, həm də dünyanın ən qədim yaşayış məskənlərindən biridir.

Ötən il "Elm və təhsil" nəşriyyatında nəfis tərtibatla nəşr olunan "Arpaçay vadisinin Tunc dövrünün arxeoloji abidələri" monoqrafiyası da bu cəhətdən diqqəti cəlb edir.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Zeynəb Quliyevanın elmi axtarışlarının, arxeoloji tədqiqatlarının nəticəsi olan bu monoqrafiyada Arpaçay vadisinin Tunc dövrü arxeoloji abidələri haqqında müfəssəl məlumat verilir.

Qeyd edək ki, Arpaçayın şərq hissəsinin, daha dəqiq desək, Naxçıvan Muxtar Respublikası ərazisi üzrə keçdiyi vadilərin Tunc dövrünü tədqiqata cəlb edən müəllif arxeoloji qazıntılar zamanı aşkar edilən materialları muzey fondlarında saxlanılan maddi-mədəniyyət nümunələri ilə müqayisəli şəkildə təhlil edir. Əsərdə həmin arxeoloji abidələrin qrafik təsviri verilib, monoqrafiyaya bu abidələrin fotoşəkilləri, eyni zamanda Şərur rayonunun arxeoqrafi xəritəsi daxil edilib.

"Giriş", üç fəsil, nəticə və ədəbiyyat siyahısından ibarət olan monoqrafiyada fotoşəkillərdən və qrafik təsvirlərdən ibarət olan alboma da xüsusi diqqət yetirilməlidir.

Arxeoloq-alim, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev kitaba yazdığı "Ön söz"də bildirir ki, Arpaçay vadisinin Tunc dövrü mədəniyyətini mədənitarixi proses kimi izləmək üçün ümumiləşdirici bir tədqiqat əsərinə ehtiyac yaranmışdı. Zeynəb Quliyevanın monoqrafiyası məhz bu boşluğu doldurmaq baxımından əhəmiyyətlidir.

Monoqrafiyanı diqqətlə oxuduqda Erkən, Orta və Son Tunc dövrlərinin arxeoloji abidələri ilə yanaşı, həmin dövrlərdə yaşayan əhalinin məşğuliyyəti, ictimai quruluşu və ideologiyası haqqında da məlumat almaq mümkün olur.

Monoqrafiyada Tunc dövründə Arpaçay vadisi boyunca yaşayan əhalinin incəsənəti də tədqiqata cəlb edilib, onların ideologiyası haqqında fikirlər irəli sürülüb, həmçinin Cənubi Qafqazla Yaxın Şərq əlaqələrində Arpaçay vadisinin rolu təhlil olunub.

Kitabda verilmiş qrafik təsvirlər və fotoşəkillərdən ibarət albomda bəhs olunan dövrün tarixinin arxeoloji abidələri, üzə çıxarılan maddi-mədəniyyət nümunələri ilə tanışlıq oxucularda konkret fikir formalaşdıracaqdır.

Bütün bunlar onu deməyə əsas verir ki, tarix üzrə fəlsəfə doktoru Zeynəb Quliyeva elmi ictimaiyyətə, həmçinin geniş oxucu kütləsinə təqdim etdiyi monoqrafiyasında bir çox elmi yeniliklərə nail olub, eləcə də Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi qarşısında qoyulmuş bölgə tarixinin öyrənilməsi işinə öz töhfəsini verib.

**Elxan YURDOĞLU**

Elektron cəmiyyət

# Naxçıvan virtual məkanda necə təbliğ olunur?



***Yüksək texnologiyalar dövrü adlandırılan XXI əsrdə dünya sivilizasiyasının sürətli inkişafında informasiya texnologiyaları əhəmiyyətli rola malikdir. Hər bir xalqın inkişafında, zamanla ayaqlaşmasında informasiya-kommunikasiya texnologiyaları (İKT) böyük rol oynayır. Hal-hazırda İKT-nin geniş tətbiq olunduğu internet cəmiyyətin mühüm fenomenlərindən birinə çevrilməklə getdikcə həyatımızda daha böyük yerə sahib olmaqdadır.***

Informasiya əsrində hər bir dövlətin və cəmiyyətin real gücünü onun virtual məkanda təmsilçiliyi və bunun hansı səviyyədə mövcud olması ortaya qoyur. Qlobal informasiya məkanı və kütləvi kommunikasiya vasitələrinin təsiri altında dünyada baş verən proseslər həm də sosial-siyasi sahədə informasiya mübarizəsi və ya təbliğat aparmaq üçün önümüzdə geniş imkanlar açır. Biz bu imkanlardan maksimum istifadə etməklə Naxçıvan Muxtar Respublikasının beynəlxalq imicini və xarici təbliğatını daha da gücləndirə bilərik. Bu baxımdan açılan cığırlarda yeriyərək, bu axına qoşularaq muxtar respublikamızın bizi biz edən dəyərlərini dünya səviyyəsində tanıtmaq imkanı əldə edə bilərik. Qeyd edək ki, bu, çox asandır, yaşından, vəzifəsindən asılı olmayaraq, hər bir vətəndaşımız doğulduğumuz, böyüyüb boya-başa çatdığımız, yaşadığımız doğma torpağımızı virtual məkanda tanıtmaq imkanına sahibdir. Bunu etmək isə bizim hamımızın borcudur. Sözdə inkişaf edən bir çox ölkələrlə müqayisə etdikdə görürük ki, bizim ölkəmizdə, sözün əsl mənasında, güclü inkişaf gedir və bu, özünü bütün sahələrdə göstərir. Ən son texnologiyalarla təchiz olunmuş xəstəxanalar, təhsil ocaqları, regionun inkişafına və əhalinin rifahına xidmət edən müasir infrastruktur xalqımızın daha rahat yaşaması üçündür. Bu inkişafı bütün dünyaya göstərməliyik.

Bəs bu gün muxtar respublikamız virtual məkanda necə təbliğ olunur?

Araşdırma zamanı internet məkanında Azərbaycanın tanıtımı istiqamətində reallaşan bir neçə layihəyə diqqət yetirdik. Bunlar içərisində ***www.nakhchivan.az*** internet portalı diqqətimizi xüsusilə çəkdi. Bu sayt 3 dildə xidmət göstərir və bu, saytı virtual məkanda daha yararlı edir. Saytın fəaliyyəti qənaətbəxşdir. Saytda Naxçıvan Muxtar Respublikası haqqında əsas və maraqlı məlumatlar yer alır.

Sosial şəbəkədə fəaliyyət göstərən "Naxçıvan həqiqətləri", "Naxçıvan gəncləri" qrupları da bu baxımdan əhəmiyyətli rol oynayırlar. Lakin bu qruplarda yayımlanan və əks olunan bir çox paylaşımlar, əsasən, Azərbaycan dilindədir. Bu isə muxtar respublikada baş verən inkişafın beynəlxalq arenada tam və əhatəli təbliği baxımından yetərsizdir. Arzumuz budur ki, qruplar fəaliyyətini müxtəlif dillərdə də davam etdirsin. Bu, muxtar respublikada baş verən yenilikləri daha geniş kütləyə çatdırmaq baxımından böyük addım ola bilər.

Bilindiyi kimi, virtual məkanda hər bir dövlətin iqtisadi gücü, müdafiə qüdrəti, insanların güzəranının daha da yaxşılaşdırılması istiqamətində görülən işlər daha çox informasiya resurslarının xüsusi çəkisi ilə şərtlənir. Məhz bu mühüm amili nəzərə alaraq hazırda dünyanın bir çox inkişaf etmiş dövlətləri virtual məkanda milli maraqlarını, siyasi baxışlarını təbliğ etmək, tanıtdırmaq məqsədilə ardıcıl, sistemli tədbirlər həyata keçirirlər.

Muxtar respublikamızda informasiya-kommunikasiya texnologiyalarının inkişafı üçün böyük işlər görülüb. Bu, bizə imkan verir ki, muxtar respublikamızın inkişafının hər addımını, hər anını virtual məkanda təbliğ edə bilək. Bu yolla da inkişafımızın mahiyyətini, sürətini, bu inkişaf uğrunda sərf edilən əməkləri qiymətləndirmiş olarıq. Bu gün tarixi keçmişimizin, milli-mənəvi dəyərlərimizin tanıdılmasında internet mühüm əhəmiyyət kəsb edir. Virtual məkanda muxtar respublikamızın tanıdılması müasir informasiya texnologiyaları ilə silahlanmış yüksəksəviyyəli, öz işini yaxşı bilən və sevən mütəxəssislərin səyi nəticəsində mümkündür.

Naxçıvan Muxtar Respublikasında keçirilən əhəmiyyətli tədbirləri müxtəlif dillərdə virtual aləmdə yayımlamaq nə qədər gözəl olardı, deyilmi?!

İnsanlar bu gün internet vasitəsilə dünyada baş verən hadisələrlə, yeniliklərlə tanış olur, bu hadisələrə internet vasitəsilə münasibət bildirirlər.

Günümüzü internet üzərində lazımsız səhifələrdə keçirmək əvəzinə, Vətənimizi, milli dəyərlərimizi internet üzərindən təbliğ etmək daha yararlı olardı. Gənclərimiz bu sahədə böyük işlər görməkdədirlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Müasir dövrdə informasiya texnologiyalarının tətbiqi işinin və informasiya mübadiləsinin çevik forması olan sosial şəbəkələrin getdikcə genişlənməsi gənclər qarşısında əlavə fəaliyyət sahəsi açmışdır. Bizim üçün xoşdur ki, muxtar respublika gəncləri bu sahəyə nüfuz etməyi bacarmış, sosial şəbəkələrdə fəallığı xeyli artırmışlar. Gənclərimiz sosial şəbəkələrdən, əsasən, təbliğat vasitəsi kimi istifadəyə üstünlük verir, öz təcrübə və biliyini səmərəli informasiya mübadiləsinə yönəldir, internet resurslarında ölkəmiz, eləcə də muxtar respublikamız haqqında obyektiv və zəngin məlumat bazası yaratmağa çalışırlar".***

İnsanların əksəriyyətinin aktiv olduğu "Facebook", "Twitter" kimi sosial şəbəkələrdə xüsusilə ermənilərin Vətənimizdə törətdikləri vəhşilikləri, soydaşlarımıza qarşı soyqırımları işıqlandırmalı, bu hadisələrə öz münasibətimizi bildirməliyik. Bununla bağlı işıq üzü görmüş elmi və bədii əsərlər də internet səhifələrində yayımlanmalıdır. Ölkəmizdə bu mövzu ilə əlaqədar nəşr olunan kitabların elektron variantını yaratmaq, sosial şəbəkələrdə müxtəlif dillərdə bu faciə və soyqırımlara həsr olunmuş şeirləri, poemaları yayımlamaq, fikrimizcə, çətin bir iş deyil. Gəlin özümüzü təbliğ əvəzinə tariximizi, dəyərlərimizi, mədəniyyətimizi təbliğ edək.

Bəli, milli maraqlarımızın virtual məkanda təmin edilməsinin prioritet istiqaməti, sözsüz ki, torpaqlarımızın 20 faizini işğal edən, oradakı maddi-mənəvi dəyərlərimizin bir hissəsini dağıdan ermənilərə həmin məkanda cavab verməkdir. Milli maraqlarımızın virtual məkanda təmin edilməsi, həm də kibercinayətkarlığa, terrorizmə qarşı mübarizədir.

Çağdaş dövrün elmi nailiyyətləri içərisində ən əhəmiyyətlisi internetdən istifadə imkanlarıdır. İnformasiya mübadiləsi milyonların maraqlarını təmin etməklə insanların həyatında önəmli rol oynayır. Virtual rəqabət məkanında sadə vətəndaşlarımız da fəal iştirak edərək milli maraqların qorunması işinə öz töhfələrini verə bilərlər. Milli dövlətçilik maraqlarının qorunmasında vətəndaş təəssübkeşliyi vacib amildir və bu həqiqəti hamı dərk etməlidir. Belə bir şəraitdə virtual dünyanın pozitiv imkanlarından səmərəli şəkildə bəhrələnməli, çalışmalı, milli ideya, ənənə və dəyərlər üzərində köklənmiş virtual informasiya məkanı formalaşdırmalıyıq.

✍ **Nərgiz İSMAYILOVA**

## Naxçıvan Muxtar Respublikası üzrə 2014-cü ilin dekabr ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/S | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri ( manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şərur rayonu | 2353506 | 235351 | 238686 | 101,4 |
| 2. | Şahbuz rayonu | 725952 | 72595 | 73604 | 101,4 |
| 3. | Culfa rayonu | 1623840 | 162384 | 164463 | 101,3 |
| 4. | Ordubad rayonu | 1566900 | 156690 | 158600 | 101,2 |
| 5. | Kəngərli rayonu | 1004994 | 100499 | 101491 | 101,0 |
| 6. | Sədərək rayonu | 302401 | 30240 | 30531 | 101,0 |
| 7. | Naxçıvan şəhəri | 4300485 | 430049 | 431482 | 100,3 |
| 8. | Babək rayonu | 2459499 | 245950 | 246150 | 100,1 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 14820638 | 1481570 | 1313915 | 88,7 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **29158215** | **2915328** | **2758922** | **94,6** |

***"Karyeram ərzində 400-dən çox qol vurmuşam", – veteran futbolçumuz Səməd Fərzəliyev belə deyir. Müasir futbol "qol maşını" axtardığı bir dövrdə Naxçıvan futbolu belə simaları, "qızıl ayaqlar"ı çox görüb, çox yetişdirib. Onlar hər zaman muxtar respublika naminə oynayıblar: hər bir çətinliyə dözüblər, səfər oyunlarında müqəddərat həll edən matçlarda meydana çıxıblar. Bəli, Naxçıvan futboluna görə bunu etmək onlar üçün vacib idi. Onlar karyeralarını yalnız bir komandaya – "Araz"a həsr etdilər.***

Veteran idmançılar

# Həyatını futbola həsr edən hücumçu



Dünya futbolu yaşıl meydanlarda hər zaman ulduzlarını "sərgiləməkdən" heç vaxt yorulmayıb. Xüsusilə vurduqları qollarla komandalarına qələbə qazandıran hücumçular daim diqqəti cəlb ediblər. Bu baxımdan muxtar respublika futbolunun bəxti gətirib. Çünki öz futbol ənənəsi olan Naxçıvanda "sehrli ayaqlar" çox olub. Təsadüfi deyil ki, keçmiş SSRİ dövründə bu futbolçular doğma arenada qorxulu rəqibə çevriliblər.

O, top qovduğu illərdə bu cür oyunçulardan olub. Mükəmməl sürət, ideal ötürmə və güclü zərbələr – Səməd Fərzəliyevə xas olan xüsusiyyətlər. Lakin o, bəzi anlarda futbolçu olduğuna görə peşmançılıq hissləri çəkir: "Əslində, futbolçu olduğum üçün heç vaxt peşman olmamışam. Çünki futbol mənə çox şey bəxş edib – ən azından ölkə miqyasında tanınmışam. Ancaq bəzən indi düşünürəm ki, kaş başqa sahənin adamı olardım".

Səməd müəllimin bu fikri kimlərsə üçün qaranlıq qala bilər. Maraqlıdır, görəsən, ömrünün 53 ilini futbola həsr edən bir şəxs niyə bu sahəni seçməyinə peşmandır? "Çünki futbol məni çox şeydən soyudub. Karyeramı hər şeydən üstün tutmuşam, bəzi anlar olub ki, sadəcə, düşündüyüm futbol olub. Məni muxtar respublikada digər idmançılardan fərqləndirən ən üstün cəhət də bu olub. Ancaq sonradan futbolda gördüyüm haqsızlıqlar bu sahəni seçməyimə peşman edib məni".

25 ilə yaxın peşəkar futbolla məşğul olan biri, təbii ki, haqsızlıqla üzləşə bilər. Çünki bu, futbolun yazılmayan qanunudur: ədaləti təmsil edən hakimlər bəzən elə qərarlar veriblər ki, dünya ulduzu olan futbolçular bir anda karyeralarını bitiriblər. Veteran futbolçumuz da bu cür hallarla çox üzləşib: "Keçmişdə futbol oynamaq, məşq etmək üçün elə də şərait yox idi. Buna baxmayaraq, biz muxtar respublika naminə hər şeyə dözürdük, dözməli idik də. Çünki mən və mənim kimi onlarla futbolçu bu torpağın yetişdirməsi idi. Ədalətsiz qərarlarla tez-tez üzləşirdik, lakin yenə də qələbə üçün oynayırdıq. İndi futbolçuların yetişməsi üçün muxtar respublikada hər bir şərait yaradılıb: stadionlar tikilib, meydançalar salınıb, futbolçuların ixtiyarına komplekslər verilib".

Səməd müəllim "Araz"ın şərəfini qorumaqla yanaşı, həm də komandanın "sükanı arxasında" əyləşənlərdən olub. Məşqçilik dövründə onun ən çox çalışdığı, diqqət göstərdiyi məqam uşaq futbolu olub: "Uşaq futbolunun inkişafı üçün hər bir klubun şəxsi bazası olmalıdır. Bu, Naxçıvanda mövcuddur. Çalışdığım dövr ərzində uşaq futbolunu daim diqqətdə saxlamışam. Məhz bunun nəticəsidir ki, muxtar respublika Sahib Mirzəyev, Allahverdi Səfərov, İbrahim Qədimov, Məhərrəm Həsənov, Hafiz Əliyev, Böyükağa Hacıyev, İbrahim Rzayev kimi futbolçular yetişdirib. Bunların, eyni zamanda adlarını unutduğum bir çox futbolçunun uşaq məşqçisi olmuşam. O dövrdə Naxçıvanı təmsil edən uşaqlardan ibarət komanda keçmiş SSRİ-də keçirilən bir çox yarışın, turnirin qalibi olub. Ən yaddaqalanı isə komandamızın Çelyabinskdə keçirilən turnirdə SSRİ-də üçüncü yeri tutmasıdır".

Uşaq futbolundan söz düşmüşkən, hazırda muxtar respublikada bu sahənin inkişafı üçün şərait yaradılıb. Səməd müəllimin fikrincə, qarşıdakı illərdə Naxçıvan yenidən Azərbaycan futboluna ulduz oyunçular bəxş edəcək: "Muxtar respublika rəhbərinin dəstəyi ilə hazırda Naxçıvanda uşaqların bu sahəyə maraq göstərməsi üçün hər bir imkan yaradılıb. Yaradılan şəraitdən məşqçilər maksimum istifadə etməlidilər. Bu diqqət nəticəsində sevimli komandamız "Araz-Naxçıvan" yenidən formalaşdı. Oyunlarını səhhətimlə bağlı meydançada izləyə bilmirdim, lakin keçmiş komandamın qazandığı hər bir uğura sevinirdim. Muxtar respublika futbolunu inkişaf etdirmək üçün bir olmalıyıq, yaradılan imkanlardan maksimum yararlanmalıyıq".

✍ **Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Tağıyev Samir Məmmədnağı oğlunun adına olan hərbi bilet itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 10